# Azərbaycanlı arxeoloq Qazaxıstanda




**Qazaxıstanın Pavlodar şəhərində Marqulan adına Pedaqoji Universitetdə "Marqulan oxumaları–2024" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Akademik Ə.X.Marqulanın 120 illik yubileyinə həsr olunmuş konfransda Milli Azərbaycan Tarixi Muzeyinin arxeologiya şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Laçın Mustafayev iştirak edib.

Muzeydən bildirilib ki, soydaşımız konfransda "Şimal-şərqi Azərbaycanda Sasanilər dövrünə aid yeni arxeoloji abidə" mövzusunda məruzə ilə çıxış edib.

Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb və verilən suallar ətraflı cavablandırılıb.

***XQ***

Xalq qəzeti .- 2024.- 5 iyun, № 117.- S.14.